BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2007

# XVIII ƏSRİN II YARISI-XIX ƏSRİN ORTALARINDA AZƏRBAYCANDA VƏQF İNSTİTUTU (QARABAĞA AİD MATERİALLAR ƏSASINDA)

**M.Q.ABDULLAYEV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan xanlıqlarında torpaq və əmlakların bir hissəsini vəqf təşkil edirdi. Vəqf əmlakından gələn gəlirlər dini idarələrin, məktəb və mədrəsələrin normal fəaliyyət göstərməsi üçün sərf olunurdu. Bakı xanlığında yerləşən Bibiheybət məqbərəsinin vəqf əmlakına dəniz kənarında yerləşən Şıx kəndində bir neçə neft quyusu, Zığ kəndində bağlar daxil idi(1) Xanlıqdakı Şeyx Əbu-Səid məqbərəsi də böyük vəqflərdən biri idi. Şubani, Şüvəlan və Bilgəh kəndlərindəki əkinlər, üzüm bağları və meşələrin bir hissəsi bu məqbərənin vəqfi sayılırdı (2, s. 137). Qarabağ hakimi İbrahim xanın qızı Gövhər ağanın tikdirdiyi məscidə məxsus vəqf əmlakı dörd kənddən ibarət idi (2). Gəncə xanlığında yerləşən İmamzadə adlanan məscidin vəqf əmlakını təşkil edən torpaq sahəsi 1200 hektara yaxın idi.(3, s. 341). Qarabağ xanlığında alban köklü xristian əhaliyə məxsus Qanzasar monastırının beş kənddən ibarət vəqfi var idi (4).

Səfəvilərə məxsus məhşur Şeyx Səfi məqbərəsinin yerləşdiyi Ərdəbil xanlığında vəqf əmlakının xüsusi çəkisi digər xanlıqlarla müqayisədə daha böyük idi. Xanlığın torpaqlarının demək olar ki, 20%-i, Ərdəbil mahalının isə yarıdan çoxu həmin məqbərənin vəqf əmlakına daxil idi (5, s. 84).

Azərbaycanın ruhani zümrəsinin tarixini hərtərəfli şəkildə araşdırmağa çalışan tədqiqatçı R.Hüseynlinin statistik məlumatların azlığı şəraitində apardığı hesablamalara görə Şimali Azərbaycan xanlıqlarında 112 min desyatin torpaq sahəsi müxtəlif vəqflərin mülkiyyətini təşkil edirdi (2, s. 138).

Hazırkı elmi araşdırma Qarabağda xanlıq idarəçiliyi və sonrakı dövrdə vəqf əmlaklarının cəmiyyətin sosial-mədəni həyatında tutduğu yerin müəyyənləşdirilməsinə həsr olunmuşdur.

1805-ci ildə Qarabağ xanlığı ilə Kürəkçay müqaviləsi bağlayan Rusiyanın Qafqazdakı baş komandanı və hakimi general A.P Yermolov tərəfindən sıxışdırılan Qarabağ hakimi Mehdiqulu xan İrana qaçaraq Qacarlara sığınmağa məcbur oldu. 1805-ci il Kürəkçay müqaviləsinin şərtlərini kobud şəkildə pozan Rus hökuməti 1822-ci ildə xanlığı ləğv edərək əyalətə çevirdi. 1823-cü ildə Qarabağ əyalətində kameral siyahıyaalma keçirildi. Keçmiş xanlığın mahallar üzrə bütün əhalisi, torpaqları və digər əmlakları qeydiyyata alındı. Həmin siyahıyaalma materialları Azərbaycan Respublikasının Dövlət Tarix arxivinin 24-cü fondunda saxlanılır, eyni zamanda 1866-cı ildə Tiflisdə bir toplu şəklində çap olunmuşdur (6, s. 415).

Qarabağ xanlığının ləğv edildiyi vəziyyəti statistik baxımdan əks etdirən bu qiymətli mənbələrdəki məlumatlara görə 20-ci illərin əvvəllərində Qarabağ xanlığında 18563 ailə qeydə alınmışdı. Tədqiqatçılar bir qayda olaraq həmin dövrdə bir ailəni (və ya həyəti) orta hesabla 5 nəfər hesab edirlər. Deməli, xanlığın əhalisi təxminən 90 min nəfərdən çox idi. Qarabağda yaşayan ailələrin 9073-ü vergi ödəyənlərin, 9490-ı isə vergi ödəməyənlərin siyahısına salınmışdı (7). Şuşa şəhərində yaşayan 1462 ailənin 192-si vergi ödəyən, 1270-i isə ödəməyən hesab edilmişdi.

1823-cü il siyahıyaalma materiallarının belə bir xüsusiyyətini qeyd etmək lazımdır ki, vergi qoymaq məqsədi, yəni fiksal səciyyə daşıdığından bəzi hallarda bir çox kəndlərdə əhalinin ümumi sayı verilsə də, tərkibi göstərilməmişdir. Bu da əhalinin sosial tərkibi və demoqrafik vəziyyəti ilə bağlı araşdırmalar aparılarkən böyük çətinliklər yaradır.

1823-cü ildə Qarabağ xanlığında məscid, mədrəsə və digər dini idarələrin nəzarətində olan torpaq və digər əmlakların siyahıya alınmasına xüsusi diqqət yetirilməsə də, həmin əmlakların gəlirlərindən istifadə edən, onlar üzərində sərəncam vermək hüququ olan din xadimlərinin sayı haqqında bir sıra statistik materiallara rast gəlinir. Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında indiyədək Qarabağ xanlığının əhalisinin tərkibində din xadimlərinin xüsusi çəkisinin müəyyən edilməsinə lazımınca diqqət yetirilməmişdir.

1823-cü il siyahıyaalmasına görə Qarabağ xanlığının mahallarında vergi ödəməyən zümrəyə aid edilən 191 din xadimi ailəsi yaşayırdı. Bunlardan 182-si molla, beşi seyid, ikisi əfəndi, biri axund, biri isə dərviş idi. Şuşa şəhərində yaşayan 43 din xadimi ailəsinin sayını da bura əlavə etdikdə xanlıqda 233 müsəlman din xadimi ailəsi var idi. Şuşa şəhərində yaşayan 42 din xadimi ailəsinin 20-si molla, 19-u seyid, 2-si axund, 1-i qazı, 2-si xəlifə idi. Şuşa şəhərində ümumilikdə cəmi 44 din xadimi ailəsi yaşayırdı ki, bunun cəmi 2-si xristian idi (8, s. 1-412)

Qarabağ xanlığında yaşayan 18563 ailənin 302-si din xadimi idi. 302 din xadimi ailəsindən 69-u xristian idi. Qarabağ xanlığında yaşayan və 1823-cü il siyahıyaalınmasında erməni kimi qeydə alınan 69 din xadimi ailəsinin 67-si mahallarda yaşayırdı (8).

Qarabağ xanlığında müsəlman din xadimlərinin sayı 1823-cü il siyahıyaalınmasında göstəriləndən xeyli çox olmalı idi. Nəzərə almaq lazımdır ki, xanlıq 1805-ci ildə Rusiyanın tabeliyinə keçəndən sonra, I Rus-Qacar müharibəsinin gedişində (1804-1813) hərbi əməliyyatlar getdiyindən bölgənin xeyli sakini qaçqına çevrildiyindən əhalinin sayı azalmışdı. 1822-ci ildə Qarabağ hakimi Mehdiqulu xan Qacar sarayına sığınarkən özü ilə Arazın o tayına – Cənubi Azərbaycana 3000 ailə (15 mindən çox) aparmışdı. Digər tərəfdən Qarabağın əhalisinin bir hissəsini elatlar təşkil edirdi. Elatlar maldarlıq təsərrüfatı ilə bağlı tez-tez yerini (qışlaq-yaylaq) dəyişirdi, müsəlman olsalar da, tam oturaq əhaliyə nisbətən dini ayinlərin və mərasimlərin icrasına tam ciddiyəti ilə əməl edə bilmirdilər. Baharlının «Əhvalati Qarabağ» əsərində Pənah xanın (1748-1763) Şuşanın «avam müsəlman» tayfasının dini ayinlərin şəriətə uyğun qaydada icra edilməsinə yönələn tədbiri haqqında çox maraqlı məlumat vardır. Baharlı yazırdı: « Pənah xan əmr edərmiş ki, camaat gedib məscidə namaz qılsınlar. O camaat getməz imiş. Axırda hökm edərmiş yasavul ilə xalqı məscidə aparıb allah əmrin və namaz təlim etsinlər... O məscidin iki qapısı var imiş. Bu qapıdan yasavul xalqı məs-

cidə doldururmuş, o biri qapıdan çıxıb qaçarmışlar (9). Daha çox etnoqrafiк səciyyə daşıyan bu məlumatda müəyyən tarixi həqiqət əкs olunmuşdur.

Qarabağ xanlığında din xadimləri xan xəzinəsinə heç bir vergi ödəməyən zümrəyə daxil idilər. Din xadimləri ümumiliкdə vergi verməyən zümrənin 3,2 %-ni təşкil edirdi. Müsəlman din xadimlərinin xanlığın vergi verməyən əhali içərisində xüsusi çəкisi 2,45 %-ə bərabər idi.

Azərbaycanın və onun ayrılmaz tərкib hissəsi olan Qarabağ bölgəsinin XVIII-XIX əsrlərdə sosial-iqtisadi, hərbi-siyasi və mədəni həyatının bir çox məsələlərinin öyrənilməsində «Qarabağnamə» lər çox mühüm mənbə rolunu oynayır. Müxtəlif müəlliflər tərəfindən müxtəlif vaxtlarda qələmə alınan «Qarabağnamə»lər və Qarabağ tarixinə aid digər əsərlər 1989-1991-ci illərdə iкi кitab şəкlində professor Nazim Axundov və tarix elmləri namizədi A.Fərzəliyev tərəfindən hazırlanaraq çap etdirilmişdir (9, s. 275). «Qarabağnamə» lərin II кitabına daxil edilmiş mənbələrdə Qarabağ xanlığında müxtəlif vəqf əmlaкları haqqında кifayət qədər böyüк elmi dəyər daşıyan məlumatlara rast gəliriк. Həmin mənbələr toplusunda verilmiş Mir Mehdi Xəzaninin «Kitabi-tarixi-Qarabağ» əsərində (10, s. 94-202) Qarabağ haкimi İbrahim xanın dövründə (1763-1806) xanlıqda olan vəqf əmlaкlarının mövcud vəziyyəti təsvir olunmuşdur. Bu mənbəyə görə Şuşa şəhər - qalasında daş və əhəngdən tiкilmiş böyüк bir məscidi- cameni hicri 1182-ci ildə (1768-1769) İbrahim xan təmir etdirmişdi. Sonralar xanın qızı Gövhər ağa 1864-1865-ci illərdə bu məscidi əsaslı şəкildə yenidən təmir etdirmiş və orada iкi ali minarə tiкdirmişdir. Bundan başqa Gövhər ağa qalada daha bir məscid inşa etdirmişdir (10, s. 200). Qeyd etməliyiк кi, istər orta çağda, istərsə də XVIII-XIX əsrlərdə hər hansı bir dini müəssisə, məscid, mədrəsə öz fəaliyyətini müxtəlif vəqf gəlirləri hesabına davam etdirirdilər. Mir Mehdinin yazılarından da aydın olur кi, Gövhər ağa İbrahim xanın dövründən qalan və özünün tiкdirdiyi hər iкi məscidə «dünyadan кöçəndə çoxlu кənd, əmlaк, mədaxil və pul vəqf etmişdi... İndi də şul vəqfiyyat davam edir» (10).

Mir Mehdi Xəzaniyə görə, Ağdam кəndində Pənah xana və onun övladlarına aid olan qəbirüstü məqbərələr və gümbəzlər Mehdiqulu xan (1806-1822) tərəfindən yaxşı təmir etdirilmiş və burada bir ehsan bağı da salınmışdı. Mir Mehdi yazırdı: «Ətrafında hasar olan böyüк bir buzxana ehsan üçün o məqbərələrə vəqf olunmuşdur. Məqsəd səhra xalqı (Aran əhalisi nəzərdə tutulur) ilat və dihat yay mövsümündə və biçin vaxtlarında aparıb sərf etsinlər. Azarlılara götürüb məsrəf edirlər. Əlbəttə кi, min yüк buz və bəlкə ziyadə məsrəf olur. Yaxşı ehsandır. Bunları mərhum Mehdiqulu xan təcridi ziyadə edibdir» (10, s. 200-201). Bu məlumatlardan aydın olur кi, Qarabağ xanları isti iqlimli Aran əhalisinin qayğısına qalaraq əкin-biçinlə məşğul olan кəndliləri və onların xəstələrini yayda buzla təmin etməк üçün buzxana tiкdirmişdilər və həmin buzxanadan əhaliyə buz pulsuz, ehsan кimi verilirdi.

Mir Mehdi Xəzaninin Qarabağdaкı vəqf əmlaкları və vəqf gəlirləri haqqında məlumatları Rzaqulu bəy Mirzə Camal oğlunun qələmə aldığı «Pənah xan və İbrahim xanın Qarabağda haкimiyyətləri və o zamanın hadisələri» adlı əsərində (10, s. 209-246) də öz təsdiqini tapmışdır. Rzaqulu bəy yazırdı: « Ağdam bağının böyüк gümbəzləri mərhum Pənah xanın və onun vəfat etmiş başqa övladlarının qəbirləri üzərində tiкil-

mişdir. Orada qəşəng otaqlar, imarətlər və böyük üstü örtülü bazar tikilmişdir. Bura mərhum Pənah xanın və atası İbrahim Xəlil ağanın qədim ocağı idi... Ağa Məhəmməd şah burada ordu qurduğu və Tiflis şəhərinə getdiyi zaman evləri və gümbəzləri xarab etmişdi... İbrahim xanın oğlu və varisi... Mehdiqulu xan o yerləri yenidən təmir edib əvvəlkindən daha zinətli bir şəklə saldı. Haman qəbirlərə vəqf olaraq, ayrıca ehsan bağı saldırdı... Bağın dörd tərəfinə daş və əhənglə divar-barı çəkdilər. Bu qəbirlərə ehsan olmaq üçün böyük bir buzxana düzəltdi. Ellər, səhrada yaşayanlar və kəndlilər hər il yayda biçin vaxtı öz xəstələri üçün buradan buz aparırdılar. Ən azı min yük, bəlkə daha çox buz sərf olunurdu» (10, s. 242). Göründüyü kimi, Rzaqulu bəyin Qarabağın vəqf əmlakları haqqında yazdıqları Mir Mehdi Xəzaninin qeydləri ilə üst-üstə düşməklə yanaşı, daha dolğun və dəqiqdir.

Mirzə Rəhim Fəna «Tarixi-cədidi-Qarabağ» əsərində (10, s. 247-269) Pənah xanın Şuşada böyük abadlıq işləri aparmasından, məscid təmir etdirməsindən bəhs etmişdir (10, s. 254).

Baharlı tərəfindən yazılmış «Əhvalati – Qarabağ» əsərində (10, s. 269-308) Qarabağın memarlıq abidələri, tarixi şəxsiyyətləri, adət ənənələri, etnoqrafik xüsusiyyətləri ilə yanaşı, xanlıqda olan vəqf əmlakları haqqında da maraqlı məlumatlara rast gəlirik. Baharlının yazdığına görə, Şuşa şəhərində fəaliyyət göstərən və göstərməyən karvansaraların bir neçəsi vəqf hesab olunurdu. Vəqf gəlirinin halallığı məsələsinə çox ciddi fikir verildiyi Baharlının diqqətindən yayınmamışdır. Baharlıya görə, Hacı Hüseyn tərəfindən təmir edilmiş bir karvansara ona görə abad olmadı və həmişə boş qaldı ki, «o karvansara Xoca Mircanlı məhəlləsinin miyanından qarışıbdır, vəqf yerindən qəsb olub. Ona görə abad olmur» (10, s. 278). Şuşadakı başqa bir karvansara Timçəli Hacı Məhərrəmə məxsus idi. Baharlıya görə, həmin karvansara «...günbəgün abaddır. Bunun timçəsinin xərci vəqfdir ki, hər il on gün Məhərrəm (ayında) həmin timçədə təziyeyi-imam Hüseyn saxlarlar. Onun mədaxilini imam ehsanı edərlər» (10, s. 278). Başqa bir karvansaranı isə Gövhər ağa təmir etdirərək məscidi camelərə vəqf etmişdi. Baharlı yazırdı: «həmin karvansara təmir edilərkən fəhlə və bənnaların muzdunu Süleyman xan adlı bir şəxs vermişdi. Sonradan onun oğlu Həsən ağa iddia ilə bu karvansaranı ələ keçirmişdi. Əvvəl bir dəfə od düşüb yanmış, Həsən ağa peşman olub, məscidlərin ixtiyarına vermiş, sonra yenə geri aldığından indi xarabadır və zibil tökərlər» (10, s. 278).

İbrahim xanın qızı Gövhər ağanın Qarabağ əhalisinə xeyirli olan işlərlə məşğul olması, vəqflər verməsi və ya vəqf əmlaklarını təmir etdirməsi, islam dini yolunda və öz axirəti üçün savab işlər görməsi – bir sözlə böyük xeyriyyəçi kimi ad qazanması dövrün salnaməçi və tarixçilərinin diqqətindən yayınmamışdır. Baharlı «Əhvalati Qarabağ» əsərində Gövhər ağa haqqında yazırdı: «Gövhər ağa əvvəl Şəki xanına, o öləndən sonra əmisi oğlu Xankişi bəyə ərə getmişdi, övladı yox idi. Amma öz axirəti üçün yaxşı binagüzarlıq etdi. Əlavə öz səyi ilə hamı üçün yaxşı fikir çəkdi. Belə ki, həmin bu iki qitə məscidi camelərinin hər birini iki dəfə təmir edib və neçə kəndlər və dükanlar və karvansaralar bu məscidlərin barəsində vəqf edib ki, kəndlilərin mədaxili bu iki məscidi camelər üçün məsrəf olsun. Məscidin həyətində azarlıxana təmir elədib ki, qərib adamlar naxoş olan vaxtda orada yatsın və müalicə olunsun. Hər gah ölsə, o adamın tədarükün görüb dəfn eləsinlər.

Yenə hər gah qala əhlindən fağır və kasıb olsa, onları da xərc çəkib, dəfn edələr. Bir də o tullablar ki, elm oxuyurlar, onlar üçün çırağ və həftədə iki dəfə çörək versinlər. Mücavirlərə və müəzzibinlərə məvacib qərar edibdir. Yenə özü, ata və ana və sair övladları üçün hər il ramazan və şaban ayında Quran oxunsun. Və əlli-altmış xətmi-Quran oxutsunlar və hər ildə həmin ehsan aylarında üç gün ehsan versinlər. Bu günə vəsiyyətlər iki böyük daşlara həkk olub və məscid divarına nəsb elədib. Sair mətrukatın və müxəllifatın Həsən ağa Süleyman xan oğluna hiybə edibdir» (10, s. 283). Baharlının «Əhvalati-Qarabağ» əsərinə görə Gövhər ağa Kərbəlada müqəddəs yerlərə sərf etmək üçün yüz min manat pul toplamışdı, ancaq əcəl buna imkan vermədi. Gövhər ağanın vəsiyyətinə görə mötəbər adamlar onu aparıb Kərbəlada dəfn etmiş və qəbrinin üzərində bir məqbərə ucaltmışdılar. Onun topladığı həmin pula Kərbəlada «karvansara və hamam təmir etdiriblər ki, onların mədaxili imam əleyhissəlama və bu mərhumənin özünə məsrəf olsun» (10, s. 284).

Baharlı Gövhər ağanın kasıb füqəraya pul və barat paylaması, ancaq etdiklərinin gizli qalması və başqalarının bilməməsinə çalışması haqqında da məlumat vermişdir(10, s. 284).

Görkəmli alim M.X.Nemətova Şuşa şəhərindəki Cümə məscidində daş üzərində həkk olunmuş kitabələrin mətnini fars dilindən tərcümə etmişdir (11, s. 47-59). Hər iki kitabə Gövhər ağanın vəqfnaməsindən ibarətdir. Gövhər ağa vəqfnaməsini məsciddəki daş üzərinə ona görə həkk etdirmişdi ki, həm məzmunundan hamı agah olsun, həm də heç kim onu dəyişdirə bilməsin. Vəqfnaməyə görə özündən sonra malına-mülkünə sahib duracaq övladı olmadığı üçün Gövhər ağa Şuşada yuxarı məhəllədəki «Cümə məscidi»nə və aşağı məhəllədəki məscidə və onun yanındakı mədrəsələrə Qarabağın Cavanşir mahalından Məqsudlu və Qaradağlı kəndlərini, Kəbirli mahalından Evoğlu kəndini, Şelli kəndindəki bir parça meyvə və üzüm bağını, Daroğlu torpağının bütün mülk və bağlarını, on bir ədəd dükan və bir karvansaranı vəqf etmişdi. Eyni zamanda həmin vəqflərdən gələn mədaxilin satılıb nəqd pula çevrilməsi və pulların xərclənməsindən ötrü, ümumiyyətlə, vəqf malikanələrinin idarəsi üçün bir neçə mütəvəlli təyin olunmuşdur. Gövhər ağa həmin vəqflərin gəliri hesabına məscid nəzdində «Darülşəfa» adlı bir xəstəxana açdırmış və mədrəsələrin xərcini ödəmiş, habelə dini və ictimai elmlərə aid kitablar hesabına mədrəsələrin kitabxanasını zənginləşdirməyə çalışmışdı (11, s. 56). Məscidlərin normal fəaliyyəti üçün kənd, dükan və karvansaraların həmin dini müəssisələrə vəqf kimi verilməsi, kəndlərdən gələn gəlirin dini işlərə sərf olunması, vəqf kimi tikilən xəstəxanada xəstələrin pulsuz müalicə olunması, ölən kasıb və füqəranın dəfni ilə bağlı xərclərin çəkilməsi, təhsil alan tələbələrin yemək, çıraq və s. ilə pulsuz təmin olunması, Ramazan, Şaban aylarında və digər dini mərasimlər zamanı ehsanlar verilməsi kimi çox mühüm və cəmiyyət üçün vacib olan sosial və mədəni vəzifələrin həyata keçirilməsi Baharlının «Əhvalati-Qarabağ» əsərində digər «Qarabağnamə»lərdən daha ətraflı və dəqiq təsvir edilmişdir.

Beləliklə, «Qarabağnamə»lərdə və Qarabağın tarixinə aid digər mənbələrdə olan məlumatlar xanlığın sosial və mədəni həyatında vəqf əmlakının tutduğu yeri müəyyənləşdirməyə, vəqfin təyinatı, vəqf gəlirlərinin mənbələri, sərf olunması və digər məsələlər haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (AR DTA) fond31, iş 48, vərəq 9-10.
2. R.Hüseynli Azərbaycan ruhaniliyi. Bakı, 2002.
3. Колониальная политика Российского царизма в Азербайджане 20-60—х годах. XИХ века. ч.2, М-Л., 1937.
4. AR DTA, f.55, iş, v.43.
5. H.Ə.Dəlili. Azərbaycanın Cənub xanlıqları. Bakı, 1979. s. 84.
6. AR DTA f. 24, siy 1, iş 141, v. 1-226; Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, в типографии управления наместника Кавказского 1866, 415 с.
7. AR DTA f. 24, siy 1, iş 141, v. 1-226
8. Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправлявшего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, в типографии управления наместника Кавказского 1866, с.1-412.
9. Qarabağnamələr. I кitab, tərtib edən və çapa hazırlayan A.Fərzəliyev. Bakı, 1989; II кitab N.Axundov. Bakı, 1991.
10. Qarabağnamələr, İİ кitab.
11. M.X.Nemətova Şuşa şəhərindəкi «Cümə məscid»inin кitabələri-Azərb. SSR EA Xəbərləri. İctimai elmlər seriyası, №1, 1961, s.47-59.


## ИНСТИТУТ ВАКФСТВА АЗЕРБАЙДЖАНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII- СЕРЕДИНЕ XIX ВВ
### (на основе документов, относящихся к Карабаху)


**М.Г.АБДУЛЛАЕВ**



**РЕЗЮМЕ**

В данной статье на основе первоисточников делается попытка исследовать такие важные вопросы как: определение численности высшего мусульманского сословия Карабахского региона, место и роль вакфского имущества в социально-культурной жизни общества, сущность вакфа, источники его доходов и последующего использования и т. д.


## *INSTITUTE* VAKF *AZERBAIJAN IN SECOND HALF* XVIII-T*O THE MIDDLE OF XIX CENTURIES*
### *(on the basis of the documents concerning to Karabakh)*


**M.Q.ABDULLAYEV**



**SUMMARY**

Aterbaijan Vakf (relegions land property) institution during the second term of XVIII century and in the middle of XIX century.

In the following article according to the primary sources is made attempts to research sueh important guestions as, identification of guantity, high layer of Garabakh region, the place and role of vakf property in the social and cultural life of society, essense of vakf (religions tand property) sources of its incomes, following utilization and soon….